

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ VƏ Naxçıvan teatrı

Müharibə respublika teatrlarının yaradıcılıq həyatının ritmini dərhal dəyişdi. Daxili yaradıcılıq həyatını yenidən qurmaq, repertuarı təzələmək, günün tələbinə uyğun tamaşalar yaradılmasını sürətləndirmək, həm də bütün bunlarla yanaşı kütlələr arasında geniş təbliğat işi aparmaq, cəbhədə, qospitallarda, kolxoz tarlalarında və sənaye müəssisələrində konsertlərdə çıxış etmək üçün böyük təşkilatçılıq bacarığı və çevikliyi lazım idi.

Başqa teatrlarda olduğu kimi, Naxçıvan teatrında da bir neçə tanınmış və istedadlı sənətkarı - Rza Məmmədov (Bacı oğlu), Mirələsgər Seyidov, Ağabala Məmmədov, Tələt Nəcəfov, Abbas Quliyev (Sovet İttifaqı Qəhrəmanıdır), M. Cəfərov və başqaları Vətənin müdafiəsinə getdilər. Onların yerini teatra yenicə daxil olmuş Əkbər Qardaşbəyov, Yusif Haqverdiyev, Məmməd Quliyev və başqaları kimi bacarıqlı gənclər tutdular.

Böyük Vətən Müharibəsi illərində Naxçıvan teatrının yaradıcı kollektivi müntəzəm olaraq muxtar respublikanın rayon və kəndlərində maraqlı tamaşa və konsert proqramı ilə çıxış edirdi. "Şərq qapısı" qəzetinin 1942-ci il 26 iyul tarixli nömrəsində dərc olunmuş "Konsert briqadası Noraşendə" xəbərində deyilir ki, M.F. Axundov adına Naxçıvan Dövlət Dram Teatrının konsert briqadası Noraşendə olmuşdur. Briqada rayonun Yengicə, Başnoraşen, Təzəkənd, Kərimbəyli kəndlərində geniş konsert proqramı ilə çıxış etmişdir. M.H. Mirişlinin, Zina Budalqovanın, Firüzə Əlixanovanın çıxışları səmimiyyətlə qarşılanmışdır. Ümumiyyətlə, demək lazımdır ki, bu cür xəbərlərə "Şərq qapısı" qəzetinin səhifələrində müntəzəm rast gəlmək olar.

Naxçıvan teatrı 1942-ci il mövsümünü sentyabr ayının 19-da bəstəkar Z. Hacıbəyovun " Evliykən subay" komediyası ilə açmışdır. Yeni mövsümün açılışı ilə əlaqədar olaraq " Şərq qapısı" qəzetinin 1942-ci il 19 sentyabr tarixli nömrəsində rejissor Səməd Mövləvi ilə müsahibə aparılmışdır.

1942-ci il teatr mövsümündə aşağıdakı pyeslər repertuara daxil edilmişdir: Z. Hacıbəyovun "Evliykən subay", "Aşıq Qərib", S. Vurğunun "Fərhad və Şirin", Z.Xəlilin "İntiqam", N.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük", M.H. Təhmasibin "Aslan yatağı", O. Sarıvəllinin "Babək", S. Rüstəmovun "Beş manatlıq gəlin", A. Məşədibəyovun "Toy kimindir?", Ü. Hacıbəyovun "Arşın mal alan", "Leyli və Məcnun", "Əsli və Kərəm". 1942-ci ildə Naxçıvan teatrında tamaşaya qoyulan əsərlər arasında S. Vurğunun "Fərhad və Şirin", M.H. Təhmasibin "Aslan yatağı", Zeynal Xəlilin "İntiqam" tamaşaları mövzu aktuallığına və tamaşanın motivlərinə görə fərqlənirdi. Bu tamaşalarda tarixi qəhrəmanlıq, qüvvətli vətənpərvərlik ruhu ilə birləşirdi. "Aslan yatağı" və "İntiqam" pyeslərində dramaturji material ideoloji antoqonizm üzərində, bütün mənəvi-insani keyfiyyətləri faşizm əleyhinə mübarizəyə səfərbər etmək ideyası üzərində qurulurdu. Dramaturqlar qələbəyə şəkk-şübhə etmirdilər. Müharibə illərində Naxçıvan teatrının baş rejissoru və direktoru olan İbrahim Həmzəyev tamaşaların gözəl səhnə təcəssümündə böyük işlər görmüşdür. O, həm quruluşçu -rejissor, həm də aktyor kimi diqqət mərkəzində olmuşdur. Onun hazırladığı "Aslan yatağı", "İntiqam", "Qaçaq Nəbi", "Nizami", "Məhəbbət"... tamaşaları tənqid tərəfindən yüksək qiymətləndirilmişdir.

Azərbacyan SSR əməkdar artisti İsa Musayev "Şərq qapısı" qəzetinin 14 sentyabr 1943-cü il tarixli nömrəsində dərc olunan "Dövlət Dram teatrı Böyük Vətən müharibəsi günlərində" adlı məqaləsində yazmışdır: "Bütün sovet xalqı üçüncü ilddir ki, həyasız alman işğalçılarına qarşı Böyük Vətən Müharibəsi aparır. İndi Qəhrəman Qızıl Ordumuz düşməni sürətlə əzərək doğma torpağımızı əclaf faşistlərdən təmizləyir. Belə bir vaxtda biz incəsənətçilərin də üzərində böyük vəzifə düşür. Belə vəzifələrdən ən başlıcası özümüzün yaradıcılıq qüvvəsi ilə arxa cəbhədən zəhmətkeşləri və Qızıl Ordu hissələrindəki döyüşçüləri yüksək vətənpərvərlik ruhunda tərbiyə etməkdən ibarətdir".



**Sənətşünaslıq doktoru, professor Cəfər Cəfərov "Azərbaycan teatrı" kitabında yazır: "Böyük Vətən müharibəsi dövrü Azərbaycan teatrının tarixinə sovet vətənpərvərliyi və humanizm ilə aşılanmış böyük və gərgin fəaliyyət dövrü kimi daxil olmuşdur. Müharibə Azərbaycan milli teatr sənətində əhəmiyyətli dəyişikliklər əmələ gətirdi. Əlbəttə, bütün maddi və mənəvi qüvvələrin hərbi məqsədlər üçün səfərbər edildiyi müharibə şəraitində görünən bəzi itkilər də oldu: teatrların maddi imkanları azaldı, repertuar vəziyyəti ağırlaşdı. Bu isə dramaturgiyanın və onun tələsik səhnə təcəssümünün keyfiyyətinə tələbatın azalmasına gətirib çıxardı, yaradıcılıq vəzifələri, forma və vasitələri baxımından kifayət qədər dərindən mənalandırılmadan hazırlanan quruluşlar səhnəyə yol tapdı. Bununla belə müharibə dövründə teatr sənəti böyük bir məqsədəuyğunluq gücü kəsb etdi; onun müasirliklə əlaqəsi möhkəmləndi, yeni mövzu və surətlərlə zənginləşdi. Teatr ideyaca yüksəldi.**

M.F. Axundov adına Naxçıvan Dövlət Dram Teatrı öz repertuarını və iş planını Böyük Vətən Müharibəsinin tələblərinə uyğun olaraq qurmuş, yeni yaradıcılıq nümunələri göstərməyə və yüksək keyfiyyətli tamaşalar verməyə çalışmış və çalışmaqdadır. Keçən mövsümə (1942-ci il nəzərdə tutulur-C.V.) yekun vurarkən görürük ki, teatrımız hərbi hissələrdə, hərbi xəstəxanalarda və eləcə də respublikamızın bir çox kolxozlarında tarixi dramları, Azərbaycan klassiklərinin diqqətçəkən əsərlərini tamaşaya qoymuş, müasir həyatımızdan bədii konsertlər və teatr tamaşaları göstərmişdir.

Naxçıvan teatrı öz səhnə stilini ardıcıl olaraq möhkəmlədir və təkmilləşdirir. Romantik qəhrəmanlıqla zəngin olan pyeslərin tamaşaya qoyulması bizdən çox işlər tələb edir. Məhz buna görə də repertuar tutularkən bu cəhətə daha çox diqqət verilmişdir. Teatrımız bu mövsümdə xalqımızın mübariz keçmişini və qəhrəmanlığını, müasir həyatımızın qəhrəman oğullarının Vətən müharibəsi cəbhələrində göstərdiyi igidlikləri və Azərbaycan klassik dramaturgiyasının gözəl nümunələrini əks etdirəcəkdir. Bunun üçün teatrımızın bütün kollektivi özünü səfərbərliyə almışdı.

Azərbaycan incəsənətinin inkişafı sahəsində xidmətlərinə görə, habelə Böyük Vətən müharibəsi günlərində Qızıl Ordu və Hərbi Dəniz Donanması hissələrinə nümunəvi bədii xidmət etdiklərinə görə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin 1943-cü il 17 iyun tarixli fərmanı ilə bir qrup aktyora Azərbaycan SSR əməkdar artisti fəxri adı verilmişdir. Təltif olunanlar arasında İbrahim Həmzəyev, Səməd Mövləvi, Əyyub Haqverdiyev, İsa Musayev də var idi. (Bu fəxri adı alan zaman İsa Musayev Quba teatrının direktoru və bədii rəhbəri işləyirdi-C.V.) Bu hadisə Naxçıvan teatrının həyatında böyük sevincə səbəb olmuşdur.

Naxçıvan teatrı 1943-cü il mövsümünü sentyabr ayının 10-da Səməd Vurğunun "Vaqif" mənzum faciəsicilə açmışdır. Qeyd etmək lazımdır ki, "Vaqif" in ilk tamaşası Naxçıvan teatrında 1939-cü ildə olmuşdur. Teatr 1943-1944-cü il repertuarına Rəsul Rzanın "Vəfa", Abdulla Şaiqin "Vətən", A. Şirvanzadənin "Namus", N.B. Vəzirovun "Adı var, özü yox", F. Şillerin "Məkr və məhəbbət", V. Şekspirin "Otello" pyeslərini və bir sıra başqa əsərlər daxil etmişdir.

Abdulla Şaiqin "Vətən" pyesi müharibə illərində və sonraki illərdə də Naxçıvan teatrının repertuarında özünəməxsus bir yer tutmuşdur. 1943-cü ilin dekabr ayında "Vətən" pyesinin ilk tamaşası olmuşdur. Quruluşçu-rejissor İsa Musayev, bədii tərtibatçı Şəmil Qazıyev, musiqi tərtibatçı Ənvər Hüseynov tamaşada qəhrəmanın vətəni müdafiə və azadlıq uğrunda mübarizə və qələbəsini nikbinliklə verməyə müvəffəq ola bilmişlər. Ayrı-ayrı səhnələr, mizan və hadisələr tamaşaçılara coşğun həyat sevgisi, vətənə məhəbbət və sədaqət, düşmənlərə kin və nifrət hissləri aşılanmasına kömək etmişdir. "Vətən" tamaşasında İbrahim Həmzəyev-Elman, Zəroş Həmzəyeva-Gözəl, Səməd Mövləvi-Bilici Baba, Firuzə Əlixanova-İfritə, Mirhəsən Mirişli-Lələş pəhləvan rollarında uğurla çıxış etmişlər.

"Şərq qapısı" qəzetinin 16 dekabr 1943-cü il tarixli nömrəsində İdris Səlimov tamaşa haqqında yazdığı resenziyanı belə tamamlayır: "Vətən" həqiqətən gənc nəslimizə vətəni müdafiə etməyə, onun hər cür düşmənlərinə amansız olmağa çağıran ən qiymətli və ən mühüm bir əsərdir. "Vətən" i səhnəmizin ən yaxşı tamaşaları sırasına qoymaq olar".

Böyük Vətən Müharibəsi illərində Naxçıvana Bakıdan sənətkarlar gələr və yerli aktyorlarla birlikdə tamaşalarda çıxış edərdilər. SSRİ xalq artisti, mərhum Sidqi Ruhulla 1942-ci il sentyabrın 10-da Naxçıvan teatrında S. Vurğunun "Vaqif" tamaşasında Qacar rolunda yerli aktyorlarla birlikdə çıxış etmişdir. Bundan başqa S. Ruhulla "Fərhad və Şirin" tamaşasında da Şapur rolunda çıxış etmişdir. Bu cür qüdrətli səhnə ustalarının Naxçıvana gəlişi teatrın həyatında əlamətdar hadisəyə çevrilirdi. Həm də aktyorların peşəkarlıq sə-

viyyəsinin artmasına müsbət köməklik göstərmiş olurdu.

Qeyd etmək lazımdır ki, Böyük Vətən Müharibəsi illərində naxçıvanlı sənətkarlar sözün əsl mənasında böyük fədakarlıq göstərmişlər. Məhz bunun nəticəsiydi ki, Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Rəyasət Heyətinin 1944-cü il aprel ayının 25-də verdiyi fərmanla naxçıvanlı aktyor-Rza İsfəndiyarlı, Mirhəsən Mirişli, Firuzə Əlixanova, Əyyub Abbasov, Zəroş Həmzəyeva, Kazım Hüseynov, İdris Nağıyev Naxçıvan Muxtar Respublikasının əməkdar artisti fəxri adıyla təltif olundular. Bir qrup aktyor və texniki işçilər Naxçıvan MR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə mükafatlandılar.

Düz bir ildən sonra müharibənin qurtarmasına az qalmış 1945-ci ilin aprel ayının 28-də Xədicə Qazıyeva və Roza Cəfərxanova Naxçıvan Muxtar Respublikasının əməkdar artisti fəxri adına layiq görüldülər.

Professor Cəfər Cəfərov yazıb: "Müharibə mövzusu üzərində teatrın və Azərbaycan dramaturqlarının əlbir işi öz nəticələrini yalnız 1942-ci ildən göstərməyə başladı. Bir qayda olaraq yeni pyeslər Əzizbəyov adına teatrın divarları daxilində doğulur, sonra isə başqa teatrların səhnəsinə addımlayırdı. Lakin ayrı-ayrı teatrlar da öz xüsusi müharibə dramaturgiyasını yaratmaq təşəbbüsündən imtina etmirdilər. Məsələn, müharibənin qurtarması ərəfəsində, 1945-ci il may ayının 8-də Naxçıvan teatrının keçmiş teatr rəssamı, sonra isə Böyük Vətən Müharibəsi iştirakçısı N. Nağıyevin "Polad" pyesini tamaşaya qoymuşdur".

"Polad" əsəri Böyük Vətən Müharibəsinə həsr olunmuşdur. Müharibədən əvvəl Naxçıvan teatrında bir çox tamaşaların quruluşçu rəssamı olan müəllim Nağı Nağıyev müharibədə canlı şahidi olduğu hadisələri məharətlə qələmə almışdır. Əsərdə azərbaycanlı oğul və qızların fədakarlığı, cəsurluğu, onların bütün sovet döyüşçüləri ilə çiyin-çiyinə faşist işğalçılarına qarşı mübarizəsi bədii inandırıcılıqla təbii lövhələrdə verilmişdir.

"Polad" tamaşasının quruluşçu rejissoru İsa Musayev, rəssamı Şəmil Qazıyev və Əyyub Hüseynov idi. Əsas rolları Əyyub Məmmədov (Polad), Ağarza Əliyev (alman kapitanı), Xədicə Qazıyeva (şəfqət bacısı) oynamışlar.

"Naxçıvan teatrının tarixi" kitabının müəllifi Əli Xəlilov yazıb: "Teatr "Polad" əsərini də "Aydın" və "Praqanın şabalıd ağacları altında" (hər üç tamaşanın rejissoru İsa Musayev olmuşdu-C.V.) pyesləri ilə birlikdə Bakı qastroluna, eləcə də Moskva baxışına hazırlamışdır. Lakin rayon zəhmətkeşlərinə mədəni xidməti yaxşılaşdırmaq məqsədi ilə teatr qastrola getmədi. Həmin əsərləri yalnız Azərbaycanın bir çox rayonlarında nümayiş etdirməklə kifayətləndi".

Böyük Vətən Müharibəsi illərində Naxçıvan teatrında Qurban Musayevin "Arsenal" (Şərqin qalası) (1944), K. Simonovun "Vətən oğlu" (1944), V. Şvarkinin "Şən nəğmə" (1944), A. Ostrovskinin "Günahsız müqəssirlər" (1943), C. Cabbarlının "Oqtay Eloğlu" (1943), V. Şekspirin "Otello" (1944) əsərləri də uğurla tamaşaya qoyulmuş və geniş tamaşaçı kütləsinin dərin rəğbətini qazanmışdır. Bu əsərlərin quruluşçu rejissorları Səməd Mövləvi, İbrahim Həmzəyev, İsa Musayev, rəssamları Şəmil Qazıyev, Əyyub Hüseynov çalışmışlar ki, tamaşaların bədii dəyəri qüvvətli, təsir qüvvəsi emosional olsun. İsa Musayev, Səməd Mövləvi, İbrahim Həmzəyev, Zəroş Həmzəyeva, Mirhəsən Mirişli, Firuzə Əlixanova, Xədicə Qazıyeva, Əyyub Haqverdiyev, Əyyub Abbasov, Rza İsfəndiyarlı və başqaları Böyük Vətən Müharibəsi illərində tamaşaya qoyulan əsərlərdə maraqlı və yaddaqalan obrazlar düzümü yaratmışlar.

Müharibə illərində Azərbaycan SSR əməkdar artisti, sonralar xalq artisti olmuş İbrahim Həmzəyevin yaratmış olduğu səhnə surətləri həm tamaşaçıların, həm də tənqidin diqqət mərkəzində olmuşdur. N. Vəzirovun "Müsibəti-Fəxrəddin" pyesində Fəxrəddin, Osman Sarıvəllinin "Babək" mənzum dramında Babək, M. Lermontovun "İki qardaş" əsərində Aleksandr, M. Hüseynin "Nizami" tarixi əsərində Nizami, S. Vurğunun "Fərhad və Şirin" mənzum faciəsində Fərhad, M.H. Təhmasibin "Aslan yatağı" pyesində Şahmar, C. Cabbarlının "Oqtay Eloğlu" əsərində Oqtay, A. Ostrovskinin "Günahsız müqəssirlər" pyesində Nezamov, M. İbrahimovun "Məhəbbət" dramında Yusif, V. Şekspirin "Otello" faciəsində Otello, K. Simonovun "Vətən oğlu" pyesində Kamal, A. Şaiqin "Vətən" dramında Elman kimi zəngin xarakterli, bitkin səhnə obrazları aktyorun maraqlı ifasında uzun illər yaddan çıxmamışdır.

Naxçıvan teatrının yaradıcı kollektivi Böyük Vətən Müharibəsi illərində zəhmətkeşlərə sədaqətlə xidmət etmiş, repertuarında xalqımızın tarixi keçmişini və düşmənə qarşı qəhrəmanlığını, şücaətini, igidliyini tərənnüm edən pyeslərə geniş meydan verməklə tamaşaçıya vətənə məhəbbət, sevgi hissləri, xoş duyğular aşılamışdır.

**Cəlil Vəzirov,**
**AMEA Naxçıvan Bölməsinin əməkdaşı,**
**R.Rza adına beynəlxalq ədəbi mükafatın laureatı**